# Xutra Ramazan - 70



Hörmətli Ramazan müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılıqla erkən yaşlardan məşğulsunuz. İlk qələm təcrübələriniz mətbuatda dərc edilmişdir. Şeir və poemalardan ibarət "Könlüm bahar istəyir", "Gecikən nəğmələrim", "Əbədi, dönməzdir istiqlalımız", "Səadətə apar bizi", "Qoruyaq dünyamızı" adlı kitablarınız ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Vətən, yurd sevgisi, doğma torpağa bağlılıq, saf, ülvi hisslərin, təbiət gözəlliklərinin vəsfi yaradıcılığınızın ana xəttini təşkil edir. Səmimi poetik parçalar oxucunun qəlbinə yol tapır.

Siz 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmisiniz. Təyinatla doğma rayona - Balakənə göndərilmiş, uzun illər burada pedaqoji fəaliyyətlə məşğul olmuş, bir vaxt təhsil aldığınız məktəbin direktoru vəzifəsinədək yüksəlmiş, nümunəvi pedaqoq kimi tanınmısınız. Müəllimlikdən təqaüdə çıxsanız da "Balakən" rayon qəzetində əmək fəaliyyətinizi davam etdirirsiniz.

Hörmətli Ramazan müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq nailiyyətləri arzu edirik.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2018.- 9 noyabr.- S.31.